# "Prezident seçildiyim andan çadır düşərgələrinin ləğvi prosesinə başladıq və bu işi 2007-ci ildə tamamilə yekunlaşdırdıq"

## Dövlət başçısının "Əl-Ərəbiyyə" telekanalına müsahibəsində dediyi bu bir cümlənin arxasında illərin gərgin əməyi, dönməz qətiyyəti durur

**İllər öncə Qarabağdan didərgin salınan minlərlə insan üçün qoyub getdikləri ev sadəcə bir məkan deyildi. Qırılmış bir zamanın, yarımçıq qalmış bir həyatın daş şahidi idi. Bununla belə onlar gözlədilər, heç bir zaman ümidlərini itirmədilər.**





Hər səhər o torpağın qoxusunu xatırlayıb oyandılar, hər axşam evlərinin astanasını təkrar-təkrar xəyallarından keçirdilər. Uşaqlıqlarının izi qalmış həyətlərində boy atmış ağacları, pilləkənlərindəki addım səslərini, divarlara, məktəb partalarına yazdıqları sözləri xatirələrə çevirərək 30 illik sınıq bir ömür yaşadılar.

İndi isə bağlı yollar yenidən açılır. Dağıdılmış evlərin, uçurulmuş divarların yerində yeni, müasir yaşayış məskənləri salınır, abad küçələrdən şən uşaq səsləri eşidilir. Yurd həsrəti ilə yaşayan insanlar artıq öz yuvalarına qayıdırlar. Bu, sadəcə dönüş deyil, həm də xalqın yaddaşına, ruhuna, kökünə və kimliyinə qayıdışıdır. Məcburən tərk etdiyi ocağına qayıdan illər həsrətlisi o torpaqda nəfəs alaraq, qoyub getdiyi dağlara baxır, həsrət qaldığı bulaqlardan su içərək sanki yenidən doğulur. Doğma torpaqlara ayaq basan hər kəs yurduna-yuvasına qovuşmaqla yanaşı, yeni bir tarixə qucaq açır, ailələri ilə birlikdə gələcək nəsilləri də yurda qaytarırlar. Çünki burada kök var, yaddaş var, ruh var. Hər daşın altında bir xatirə yatır, hər baxışda bir həsrət, hər addımda bir iz var.

Yeni həyatın fonunda tikilən hər ev bir başlanğıcdan, salınan yol bir ümiddən xəbər verir. Qarabağın və Şərqi Zəngəzurun dirçəlişi insanın içindəki dağıntıların da bərpasıdır. Bu gün işğaldan azad edilmiş ərazilərdə səslənən ilk zəng, doğulan körpə, açılan hər sabah xalqın iradəsinin və inamının qələbəsidir. Bu qələbənin müəllifi Prezident İlham Əliyevin rəhbərliyi ilə həsrətdən çat vermiş torpaqlarda yeni səhifə açılır, Böyük qayıdış planlı və mərhələli şəkildə gerçəkləşdirilir. Azad olunan yerlər bir-birindən gözəl, müasir və həyat dolu məkanlara çevrilir. Bu, Azərbaycan xalqının ruhunun, kimliyinin, gələcəyinin yenidən doğuluşudur.

Laçın, Füzuli, Zəngilan, Ağdam və Şuşa yenidən qurulub və oraya ilk sakinlər köçürülüb. Qayıdan ailələrə müasir tipli, "ağıllı kənd" və "ağıllı şəhər" konsepsiyası əsasında tikilmiş evlər təqdim olunub. Yeni salınan yollar, məktəblər, xəstəxanalar və sosial obyektlər bu ərazilərdə həyatın normal axara dönməsinə şərait yaradır. 30 ilə yaxın bir ömrü çadırlarda, yataqxanalarda, dəmir vaqonlarda, yarımçıq tikililərdə keçirən ailələr bu gün doğma torpaqlarında sabaha ümidlə baxırlar. Zəngilanın Ağalı kəndinə köçürülən ailələrdən birinin qızı belə danışır: "Atam hər gün deyirdi ki, bir gün evimizə qayıdacağıq. O gün gəldi. İndi evimiz təzədir, həyatımız yenidən başlayır. Torpağın özü köhnə olsa da, onun qoxusu, ruhu təzədir". Füzuli şəhərində isə yeni məhəllələr salınır, artıq minlərlə insan üçün infrastruktur tam hazırdır. Bir zamanlar "ruhlar şəhəri" adlandırılan Ağdam da bu gün yenidən qurulur, mədəniyyət ocaqları tikilir, sənaye zonaları yaradılır. Şuşa addım-addım keçmiş şöhrətinə, statusuna qovuşur.

Bütün bu işlərin mərkəzində güclü siyasi iradəsi ilə xalqına bağlı bir lider dayanır - Prezident İlham Əliyev. O, təkcə torpaqları işğaldan azad edən Ali Baş Komandan deyil, həm də viran qalmış Qarabağa və Şərqi Zəngəzura həyat verən qurucu liderdir. Onun rəhbərliyi ilə ilk Böyük qayıdış proqramı reallığa çevrilir. İlham Əliyev hər zaman köçkünlərin ağrı-acısını öz dərdi kimi yaşadı, onların haqq işini beynəlxalq tribunalarda səsləndirdi, yurd həsrətini dövlət siyasətinin mərkəzinə çevirdi. Bu gün yurdlarına dönən ailələrin sevincində, məmləkətlərinə qovuşan uşaqların gözündə, yenidən dirçələn yaşayış məskənlərinin hər ünvanında Ali Baş Komandanın uzaqgörənliyi, qətiyyəti və xalqına olan sədaqətinin izləri var. Yenidən qurulan kəndlərin, salınan qəsəbə və şəhərlərin açılışında iştirak edən, onların təməllərini qoyan dövlət başçısının qətiyyəti sübut edir ki, bütün bunlar təkcə keçmişin bərpası üçün deyil, həm də gələcəyin qurulması üçündür.

Qürurla deyə bilərik ki, Böyük qayıdış indi bütün dünya üçün örnəkdir, nümunədir. Prezident İlham Əliyevin işğaldan azad olunmuş ərazilərin dirçəldilməsi uğrunda göstərdiyi əzm beynəlxalq medianın da diqqət mərkəzindədir. Hər dəfə Qarabağa və Şərqi Zəngəzura səfər edən xarici jurnalistlər aparılan möhtəşəm bərpa işlərini görəndə heyrətlərini gizlədə bilmirlər. Bu günlər "Əl-Ərəbiyyə" telekanalına verdiyi müsahibədə İlham Əliyevin ifadə etdiyi fikirlər dövlətimizin başçısının Qarabağla və Şərqi Zəngəzurla bağlı strateji baxışını aydın göstərir, Böyük qayıdışın nə qədər sistemli, düşünülmüş və dayanıqlı bir dövlət strategiyası olduğunu təsdiqləyir: "Biz hətta işğal dövründə də köçürülmə proqramını həyata keçirdik, çünki onların tam əksəriyyəti on ildən artıq müddətdə çadır düşərgələrində yaşayırdı. Prezident seçildiyim andan çadır düşərgələrinin ləğvi prosesinə başladıq və bu işi 2007-ci ildə tamamilə yekunlaşdırdıq. Buna baxmayaraq, minlərlə, on minlərlə soydaşımız uzun illər çox ağır şəraitdə yaşamaqda davam edirdi. Hazırda isə Böyük qayıdış proqramı çərçivəsində onların doğma yurdlarına qayıdışı prosesinə start verilib. Biz artıq 50 mindən çox insanı azad olunmuş ərazilərdə məskunlaşdırmışıq və bu proses davam edir".

Bəli, Böyük qayıdış sadəcə söz deyil, o, tarixə, kimliyə, milli yaddaşa dönüşdür. Bu dönüşün arxasında həm xalqın iradəsi, həm də Böyük qayıdışın müəllifi olan Prezident İlham Əliyevin qətiyyəti dayanır.

***Züleyxa ƏLİYEVA,***
***"Azərbaycan"***

Azərbaycan. - 2025.- 29 avqust (№182).- S.8.